Ədalət 2019.- 26 oktyabr.- S.14.

*Rəhman Mirsalehoğlu*

## PUL BƏLASI

Millətin davası puldur,
Çoxunun bəlası puldur.

Artıq malın qorxusu var,
Bu dünyada oğrusu var,
O dünyada sorğusu var.
İtirsən xətası puldur,
Çoxunun bəlası puldur.

Çox sevirik var-dövləti,
Xoşlayırıq şan-şöhrəti,
Varlıların var hörməti.
Onların ağası puldur,
Çoxunun bəlası puldur.

Qibtə etmə milyonçuya,
Xalqı soyan soyğunçuya,
Harınlaşan o suçluya.
Onların cəzası puldur ,
Çoxunun bəlası puldur.

Biz daşdan pul çıxarırıq,
Malı, mülkü çoxaldırıq,
Hər cəfaya qatlanırıq.
Cəfanın səfası puldur,
Çoxunun bəlası puldur.

Əl açıb yalvarır xəstə,
Yoxsul durub namaz üstə
Pıçıldayır hey ahəstə.
Onun da duası puldur,
Çoxunun bəlası puldur.

Afrikada, Asiyada,
Müsəlmanlar arasında,
Mənəviyyat, süurlarda
Kafirin qovğası puldur,
Çoxunun bəlası puldur.

Axar sular niyə axmır?
Ata övladına baxmır,
Subay muradına çatmır...
Bunların əmması puldur,
Çoxunun bəlası puldur.

Cümlə cahan pula quldur,
Həyatın mənası puldur?
Möminlər Allaha quldur.

## İSTƏK

*"Hər kəs sevdiyi ilə bərabərdir."*

*Muhamməd peyğəmbər (s.ə.s.)*

Təzadlı dünyamızda,
Hər yanda, hər diyarda
Yaxşı da var, yaman da.
Bir yerdə yaşayırıq,
Qaynayıb qarışırıq.

O biri dünaymızda,
Yaxşılar bir məkanda,
Yamanlar bir məkanda
Kim razı qalacaqdır?
Kim peşman olacaqdır?

Hörmətlə salamlaşan,
Gözəl sözlər danışan,
Dost olmağa çalışan
İnsanlar arasında
Yaşamaq istəyirəm!

Etibarlı, vəfalı,
Xoşxasiyyət, həyalı,
Təmizkar və əxlaqlı
İnsanlar arasında
Yaşamaq istəyirəm!

Hiylə, yalan bilməyən,
Dedi-qodu sevməyən,
Könüllərə dəyməyən
İnsanlar arasında
Yaşamaq istəyirəm!

Fikri işıqlı, nurlu,
Qəlbi sevgiylə dolu,
Təbiətə duyğulu
İnsanlar arasında
Yaşamaq istəyirəm!

Məhşərə toplaşanda,
Ayrılıq başlayanda,
Getdiyim son məkanda
Yaxşılar sırasında
Yer almaq istəyirəm.
Yaxşılar arasında
Yaşamaq istəyirəm!

## Ya Rəbb, Sənə sığınıram

Sən Rəhmansan, Sən Rəhimsən, ya Rəbb, sənə sığınıram,
Bağışlayan, əfv edənsən, rəhmətinə sığınıram.

Allah birdir, şəriki yox, Muhəmməd də rəsuludur,
Bu imanın dəyərinə, hikmətinə sığınıram.

Xoşbəxtəm ki, müsəlmanm, Quran kimi kitabım var,
Surələrə, ayələrə, hər hökmünə sığınıram.

Tərif ancaq Sənə layiq, həmdü-səna söyləyirəm,
Yol göstərən mövlamızsan, Haqq isminə sığınıram.

Tükənməyən nemətinlə Sən məni də bəsləyirsən,
Nemətinə şükr edirəm, kəreminə sığınıram.

Həyat çətin, məşəqqətli, zalımların zülmü, qəsdi
Qüvvən çatır hər müşkülə, qüvvətinə sığınıram.

Lənətlənmiş şeytanların, şeytan kimi insanların
Xəbis, çirkin əməlindən himayənə sığınıram.

Günahkaram, hüzurunda boynubükük dayanmışam,
İnsanları çox sevirsən, bu sevginə sığınıram.

Bəzən olur, insan çaşır, əyri, düzü qarışdırır,
Doğru yola yönəlt məni, köməyinə sığınıram.

Yaradan Sən, yaşadan Sən, öldürən Sən, dirildən Sən,
Sən Qadirsən! İki cahan malikinə sığınıram.

Qullarını əfv edəndə Rəhmanı da gəl bağışla,
Sənə pənah gətirmişəm, yalnız Sənə sığınıram.